**Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən biri də oktyabrın 3-nə təsadüf edir. Həmin gün xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən seçim etdi.**

# 26 il əvvəl Heydər Əliyevin ilk prezident seçildiyi gün siyasi opponentlərinin gözü ilə...

***Fazil Mustafa:** "Həmin vaxt Heydər Əliyevin prezident seçilməsi Azərbaycanı daha ciddi təlatümlərdən xilas etdi"*

***Əliməmməd Nuriyev:** "Heydər Əliyev miqyas etibarilə çox nəhəng dövlət xadimi olub"*



1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı. Ulu Öndər 98.84 faiz səslə Azərbaycan Prezidenti seçildi.

Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi liderə ehtiyacı var.

Hələ 1969-1982-ci illərdə - Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycan üçün gördüyü misilsiz işlər xalqımız tərəfindən unudulmamışdı. Eyni zamanda, 1990-cı ildə 20 Yanvar faciəsinin səhəri günü Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, xalqımıza başsağlığı verməsi, onunla birgə olduğunu bəyan etməsi dahi liderə olan inamı daha da artırmışdı.

Heydər Əliyevin Prezident seçildiyi həmin günə vaxtilə onunla siyasi opponent olmuş şəxslərin baxışı ilə qiymət vermək istədik. Həmin dövrdə Heydər Əliyevə müxalif cəbhədə dayanmış millət vəkili Fazil Mustafa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məlum hadisə yaxın tariximizin gərgin dönəminə təsadüf edir: "Xüsusilə də həmin dönəmdə ölkədə böyük qarışıqlıq vardı. Ölkəyə rəhbərlik etmək parlamentin sədri kimi Heydər Əliyevə həvalə edilmişdi. Seçkilərin keçirilməsini nəzərdə tutan referendum isə 5 avqustda keçirilmişdi. Həmin referendumda prezidentin səlahiyyətinə xitam verilmişdi. Ona görə də belə bir seçkinin keçirilməsi olduqca zəruri idi. Çünki Azərbaycanın Dağlıq Qarabağ bölgəsində əməliyyatlar keçirilirdi, həm də cənubda qondarma "Talış Muğan" adlı bir qurum elan olunmuşdu. Həmin seçkinin olması və Heydər Əliyevin prezident seçilməsi ölkədə müəyyən dərəcədə bir sabitlik də yaratmış oldu. Hesab edirəm ki, həmin vaxt Heydər Əliyevin prezident seçilməsi Azərbaycanı daha ciddi təlatümlərdən xilas etdi. Çünki hakimiyyət boşluğunun olmasından istifadə edən müəyyən qüvvələr ölkədə böyük problemlər yaradırdılar. Xüsusilə də xaricdən idarə edilən şəbəkələrə Heydər Əliyev öz düşünülmüş, qətiyyətli addımları ilə müəyyən məkrli niyyətlərini həyata keçirməyə imkan vermədi. Çünki hakimiyyət boşluğundan çoxları istifadə etməyə çalışırdı. Həmin seçkilərdən sonra Azərbaycan dövləti tam sabitliyə qovuşa bildi".

Həmin dövrdə Heydər Əliyevə müxalif olanlardan biri, sabiq millət vəkili, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev də hesab edir ki, həmin seçkinin Azərbaycan xalqı, dövləti üçün böyük faydası olub: "Heydər Əliyev miqyas etibarilə çox nəhəng dövlət xadimi olub. Uzun illər rəhbər orqanlarda işləməsi, xüsusilə də keçmiş SSRİ-nin siyasi olimpinin ən yüksəkliklərini fəth etməsi ona böyük siyasi bacarıq, təcrübə qazandırmışdı. Eyni zamanda, Heydər Əliyev Azərbaycanı çox yaxşı tanıyırdı. O xüsusi idarəçi idi. Həmin dövrün şərtləri də onun qayıdışını zəruri edirdi. Çünki ölkədə qiyam baş vermişdi, vətəndaş qarşıdurması vardı. Rəhmətlik Elçibəy böyük siyasət adamını Bakıya dəvət etdi. Heydər Əliyev ilk olaraq parlamentin sədri seçildi, prezident səlahiyyətlərini icra etdi. Həmin vaxt göründü ki, məhz onun ölkəyə rəhbərlik etməsi ən doğru addımlardan biridir. Qanunsuz silahlı birləşmələrin fəaliyyətinə məhz o son qoya bildi. Ölkənin işğalı prosesi dayandırıldı, atəşkəs elan olundu. Yaranmış ağır situasiya belə bir adamın əyalətdə qalmasını şərtləndirə bilməzdi. Biz o zaman müxalifətdəydik. Ancaq buna baxmayaraq, hadisələrə doğru qiymət verməliyik. Əgər bizim partiyanın rəhbəri belə bir addımın atılmasını zəruri saymışdısa, biz heç nə deyə bilməzdik. Bunlar həmin dövrün qanunauyğunluqlarından idi. Hesab edirəm ki, həmin gün Azərbaycan üçün uğurlu olub. Zaman və tarix bunu sübut etdi. Heydər Əliyevin qiymətini də zaman verib. Bunu heç kim dana bilməz".

***Məhəmmədəli QƏRİBLİ***